Maliyyə Monitorinqi Xidməti



# Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin 2023-cü il üzrə

# İLLİK HESABATI

2023

# Mündəricat


Ön söz....3-4

ƏL/TMM üzrə siyasətin formalaşdırılması üzrə fəaliyyət və 5-ci raund MONEYVAL qiymətləndirməsi....6-12

Məlumatların emalı və təhlili üzrə fəaliyyətlər....13-19

Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər....20-21

Ölkədaxili əməkdaşlıq....22-23

Beynəlxalq əməkdaşlıq....24-27

İnstitusional quruculuq və təşkilati məsələlər....28-30




# Ön söz

Ulu Öndər Heydər Əliyev tərəfindən işlənib hazırlanmış, onun özü qədər inandığı Möhtərəm cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin inamla və böyük uğurla həyata keçirdiyi qalibiyyətli siyasi kurs, xalqın öz Liderinə olan dərin inam və etimadı nəticəsində 2023-cü ildə dövlətimizin ərazi bütövlüyü tam və əbədi bərpa edilmiş, Azərbaycan Respublikasında demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesi uğurla davam etdirilmişdir. Ölkəmizdə siyasi idarəçilik sisteminin inkişaf etdirilməsi nəticəsində dayanıqlı və davamlı rifaha nail olunmuş, ölkəmiz dünya birliyi tərəfindən etibarlı tərəfdaş kimi tanınmış, cinayətkarlıq, ekstremizm və terrorçuluqla mübarizə strategiyası, açıqlıq, şəffaflıq və hesabatlılıq prinsiplərinin tətbiqi daha da genişləndirilmiş, maliyyə şəffaflığı yüksəldilmiş, vətəndaş cəmiyyəti institutlarının dəstəklənməsi və ictimai nəzarətin gücləndirilməsi, habelə açıq hökumətin təşviqi təmin edilmişdir.

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən 2023-cü il ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə siyasət quruculuğu, qanunvericiliyin təkmilləşdirilməsi, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir.

2023-cü il ərzində Avropa Şurasının MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsi çərçivəsində həyata keçirilmiş kompleks tədbirlər nəticəsində Respublikamız FATF qiymətləndirmə metodologiyasının effektivlik göstəricilərindən 18 faizi üzrə "əhəmiyyətli", 73 faizi üzrə "orta" və yalnız 9 faizi üzrə "aşağı" kimi qiymətləndirilmiş, bu göstəricilərdən 4-ü üzrə dünya ölkələrinin orta göstəricisindən daha yüksək, 6-sı üzrə isə orta göstəricilərə bərabər nəticə əldə etməklə 91,0 faiz uyğunluq nümayiş etdirmişdir. Həmçinin, FATF-ın texniki uyğunluq standartından 17,5 faizi üzrə "tam uyğun", 55 faizi üzrə "əsasən uyğun", 25 faizi üzrə "qismən uyğun" kimi nəticə göstərmiş, bu standartların 12-si üzrə dünya ölkələrinin orta göstəricisindən daha yüksək, 21-i üzrə isə orta göstəricilərə bərabər nəticə göstərməklə 82,1 faiz uyğunluq təşkil etmişdir.

Hesabat dövründə "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Hədəfli maliyyə sanksiyaları haqqında" Azərbaycan Respublikasının qanunları qüvvəyə minmiş, bu qanunların tələblərinə uyğun olaraq bir sıra normativ xarakterli aktlar qəbul edilmişdir. Həmçinin, Xidmət tərəfindən 2015-2021-ci illəri əhatə edən milli risk qiymətləndirilməsi nəticəsində aşkar edilmiş zəifliklərin aradan qaldırılması, milli ƏL/TMM sisteminin effektivliyinin artırılması, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3773 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın icrası üzrə tədbirlər həyata keçirilmişdir. Eyni zamanda, "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin nəzarət orqanlarının və müəyyən edilmiş digər orqanların (qurumların) informasiya resurslarının istifadəyə buraxılış dərəcəsinin (alınan məlumatların dairəsinin) müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 sentyabr tarixli 359 nömrəli Qərarının icrası ilə bağlı 12 dövlət qurumunun məlumat bazaları ilə inteqrasiya işləri həyata keçirilərək məlumat mübadiləsi aparılmasına başlanılmışdır.
2023-cü il ərzində beynəlxalq səviyyədə təmsilçiliyin və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində Xidmətin əməkdaşı "Eqmont Qrupu"nun "Üzvlük, dəstək və uyğunluq üzrə işçi qrupu"nun rəhbəri vəzifəsinə, İdarə Heyəti sədrinin müavini ikinci dəfə "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında" Avropa Şurası Konvensiyasının (CETS 198) Tərəflər Konfransının 15-ci plenar iclasında Tərəflər Konfransının büro üzvü vəzifəsinə seçilmiş, 4 ölkənin maliyyə monitorinqi orqanı ilə Anlaşma Memorandumu imzalamışdır.

Hesabat dövründə öhdəlik daşıyan şəxslər, nəzarət orqanları, məhkəmə və hüquq mühafizə orqanları, eləcə də müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm işlər görülmüş, ictimai əlaqələr genişləndirilmiş, media subyektləri ilə əlaqələr qurulmuş və mütəmadi olaraq ictimaiyyətə lazımi məlumatlar təqdim edilmişdir. Xüsusiləşdirilmiş əməkdaşlıq çərçivəsində nəzarət və hüquq mühafizə orqanlarının əməkdaşlarından ibarət işçi qruplar formalaşdırılmış, mütəmadi görüşlər təşkil edilmiş, milli fəaliyyət və tədbirlər planları üzrə tədbirlərin birgə icrası, strategiyaların hazırlanması, vahid statistik bazanın formalaşdırılması, ekspert və metodoloji dəstəyin göstərilməsi, analitik təhlillərin aparılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətləri üzrə əlaqəli fəaliyyət həyata keçirilmişdir.

2023-cü ildə institusional quruculuq istiqamətində fəaliyyət davam etdirilmiş, kadr potensialının gücləndirilməsi, bilik səviyyəsinin artırılması təmin olunmuş, iş axınlarının və işgüzar yazışmanın avtomatlaşdırılması üzrə işlər yeni mərhələyə keçirilmiş, məlumatların qəbulu, emalı və təhlil proseslərini, eləcə də işlərin hüquq mühafizə orqanlarına ötürülməsini avtomatlaşdıran yeni proqram təminatının qurulmasına başlanılmışdır.
Bu gün Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında Respublikamızda demokratik, hüquqi, dünyəvi dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesinin uğurla davam etdirilməsi nəticəsində müşahidə olunan iqtisadi artım maliyyə şəffaflığının gücləndirilməsi zərurətini yaradır. Bu da Xidməti və bu hallarla mübarizə aparan digər dövlət qurumlarını daha tədbirli olmağa sövq edir. İnanıram ki, qarşıdakı illərdə Maliyyə Monitorinqi Xidməti öz fəaliyyətini yenilənən beynəlxalq standartlara uyğunlaşdırmaqla ölkəmizdə və dünyada cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin effektiv icrasına, cinayətkarlığın qarşısının alınmasına, Respublikamızda şəffaf maliyyə sisteminin qurulmasına öz töhfəsini verməyə davam edəcəkdir.

İdarə Heyətinin sədri Zaur Fətizadə

## Hesabat

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti tərəfindən 2023-cü il ərzində cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (bundan sonra – ƏL/TMM) üzrə siyasət quruculuğu, qanunvericiliyin təkmilləşdirilməsi, müəyyən edilmiş tələblərə uyğun olaraq məlumatların təhlili, ötürülməsi, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, Avropa Şurasının MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirməsinin ölkəmiz üçün müsbət nəticə ilə yekunlaşdırılması üçün bir sıra işlər görülmüşdür.




## ƏL/TMM üzrə siyasətin formalaşdırılması üzrə fəaliyyət və 5-ci raund MONEYVAL qiymətləndirməsi

Xidmət tərəfindən 2023-cü il ərzində 2022-ci ilin aprel ayından başlayan Avropa Şurasının MONEYVAL Komitəsi tərəfindən 5-ci raund qiymətləndirmə çərçivəsində ölkə səviyyəsində qurumlararası əməkdaşlığın təşkili və nəticələrə müsbət təsir edə biləcək fəaliyyətlərin həyata keçirilməsi davam etdirilmişdir.

İlkin olaraq, MONEYVAL 5-ci raund qiymətləndirməsinə aidiyyəti qurumların hazırlığının təmin edilməsi ilə bağlı ardıcıl hazırlıq işləri təşkil edilmiş, 2023-cü ilin yanvar və fevral aylarında bu qurumların əməkdaşları üçün beynəlxalq ekspertin və Xidmət əməkdaşlarının təlimçi kimi cəlb edilməsi ilə real müsahibələrin 30-dan çox simulyasiyası keçirilmişdir.

Bundan sonra, 1-15 mart tarixlərində Azərbaycanın qarşılıqlı qiymətləndirilməsi çərçivəsində MONEYVAL qiymətləndiricilərindən ibarət missiyanın ölkəmizə səfəri baş tutmuşdur. Missiyanın Azərbaycana gəlişi ilə bağlı təşkilatı məsələlər, qiymətləndiricilərin bütün lazımi şəraitlə təmin edilməsi Xidmət tərəfindən həyata keçirilmiş, müvafiq meyarlar üzrə qiymətləndirmənin aparılması məqsədilə dövlət və özəl sektorların nümayəndələri ilə görüşlər təşkil edilmişdir.

Qiymətləndirmə hesabatının yekun layihəsinin hazırlanması bir neçə mərhələdən ibarət olduğundan, aprel ayında hesabatın birinci layihəsi Xidmətə daxil olmuş və aidiyyəti orqanlarla koordinasiya edilmiş qaydada hazırlanmış Birbaşa Nəticələr və FATF tövsiyələri üzrə şərhlər MONEYVAL Katibliyinə təqdim edilmişdir. Şərhlərdə müqayisə oluna bilən reytinqlər alan dövlətlərin qarşılıqlı qiymətləndirmə hesabatlarının horizontal araşdırılmasının aparılması və uyğunsuzluqlara dair istinadlar verilməsi nəticəsində ilkin mərhələdə Birbaşa Nəticə 2 üzrə reytinqin “orta” göstəricidən “əhəmiyyətli”yə, Birbaşa Nəticə 5, 7 və 8 üzrə isə “aşağı” göstəricidən “orta”ya yüksəldilməsinə nail olunmuşdur.

2023-cü ilin iyul ayında ikinci layihə və prosedura uyğun olaraq hesabatı nəzərdən keçirən ekspertlər tərəfindən hazırlanmış şərhlər Xidmət və aidiyyəti qurumlar tərəfindən cavabandırılaraq mübahisələndirilən reytinqlər üzrə ölkəmizin mövqeyi qorunmuşdur.

Bundan sonra, 12-14 sentyabr tarixlərində Fransanın Strasburq şəhərində Respublikamızın 5-ci raund qarşılıqlı qiymətləndirilməsinin növbəti mərhələsi olaraq MONEYVAL Katibliyi və qiymətləndiricilərlə 25 nəfərdən ibarət Azərbaycan nümayəndə heyətinin üz-üzə görüşləri təşkil edilmişdir. Səfər çərçivəsində qiymətləndirmə hesabatının layihəsi müzakirə edilmiş, texniki uyğunsuzluqlar aradan qaldırılmış, FATF-ın 22-ci tövsiyəsi üzrə reytinqlərin qaldırılmasına nail olunmuş, Birbaşa Nəticə 11 üzrə reytinq göstəricisi “aşağı”dan “orta”ya yüksəlmişdir.

2023-cü ilin 11-15 dekabr tarixlərində Fransanın Strasburq şəhərində Avropa Şurasının MONEYVAL Komitəsinin 66-cı plenar iclasında MONEYVAL Komitəsi tərəfindən Respublikamızın 5-ci raund qarşılıqlı qiymətləndirilməsinin yekun hesabatının layihəsi Azərbaycan nümayəndə heyəti tərəfindən dinlənilmiş, son 5 il ərzində ƏL/TMM sahəsində görülmüş işlər, əldə edilmiş nailiyyətlər müzakirə olunmuş və MONEYVAL tərəfindən müsbət qiymətləndirilmişdir. Müzakirələrdən sonra Birbaşa Nəticə 9 üzrə reytinq “orta” göstəricidən “əhəmiyyətli”yə yüksəldilmiş, yekun hesabat qəbul edilərək ƏL/TMM sisteminin təkmilləşdirilməsi üçün görüləcək işlərə dair tövsiyələr verilmişdir.

*Effektivlik üzrə reytinqlər*

| | | | | | |
|---|---|---|---|---|---|
| BN.1 – Risklər, siyasət və koordinasiya | BN.2 – Beynəlxalq əməkdaşlıq | BN.3 – Nəzarət | BN.4 – Preventiv tədbirlər | BN.5 – Hüquqi şəxslər və təsisatlar | BN.6 – Maliyyə kəşfiyyatı |
| Orta | Əhəmiyyətli | Aşağı | Orta | Orta | Orta |
| BN.7 – ƏL üzrə istintaq və təqib | BN.8 – Müsadirə | BN.9 – TM üzrə istintaq və təqib | BN.10 – TM üzrə preventiv tədbirlər və maliyyə sanksiyaları | BN.11 – KQSYM üzrə maliyyə sanksiyaları | |
| Orta | Orta | Əhəmiyyətli | Orta | Orta | |

*Texniki uyğunluq üzrə reytinqlər*

| | | | | | |
|---|---|---|---|---|---|
| T.1 – risklərin qiym-si və risk əsaslı yanaşmanın tətbiqi | T.2 – milli səviyyədə əməkdaşlıq və koordinasiya | T.3 – çirkli pulların yuyulması cinayəti | T.4 – müsadirə və tətbiqi tədbirlər | T.5 – TM cinayəti | T.6 – HMS-terrorçuluq və TM |
| Əsasən uyğun | Tam uyğun | Əsasən uyğun | Əsasən uyğun | Əsasən uyğun | Əsasən uyğun |
| T.7- HMS - KQSYM | T.8 – qeyri-kommersiya təşkilatları | T.9 – maliyyə institutlarının sirr rejiminə dair qanunvericilik | T.10 – müştəri uyğunluğu tədbirləri | T.11- məlumatların saxlanılması | T.12 – Siyasi nüfuzlu şəxslər |
| Əsasən uyğun | Qismən uyğun | Əsasən uyğun | Əsasən uyğun | Tam uyğun | Tam uyğun |
| T.13 – Korr-bankçılıq | T.14 – Ödəniş xidməti təchizatçısı | T.15 – Yeni texnologiyalar | T.16 – Elektron köçürmə | T.17 – Üçüncü şəxslərə güvənmə | T.18 – Daxili nəzarət və xarici filiallar və törəmə müəssisələr |
| Tam uyğun | Qismən uyğun | Qismən uyğun | Qismən uyğun | Tam uyğun | Əsasən uyğun |
| T.19 – Yüksək riskli ölkələr | T.20 – Şübhəli əməliyyatlar hesabatı | T.21–Məlumatların açıqlanması və konfidensiallıq | T.22 – Qeyri-maliyyə institutları: müştəri uyğunluğu tədbirləri | T.23 – Qeyri-maliyyə institutları: digər tədbirlər | T.24 – Hüquqi şəxslərin şəffaflığı və BM |
| Əsasən uyğun | Tam uyğun | Əsasən uyğun | Əsasən uyğun | Əsasən uyğun | Qismən uyğun |
| T.25 – Hüquqi təsisatların şəffaflığı və BM | T.26 – Maliyyə institutlarının tənzimlənməsi və nəzarət | T.27 – Nəzarət səlahiyyətləri | T.28 – Qeyri-maliyyə institutların tənzimlənməsi və nəzarət | T.29 – Maliyyə kəşfiyyatı orqanı | T.30 – Hüquq mühafizə və instintaq orqanlarının vəzifələri |
| Əsasən uyğun | Qismən uyğun | Qismən uyğun | Qismən uyğun | Tam uyğun | Əsasən uyğun |
| T.31 – Hüquq mühafizə və istintaq orqanlarının səlahiyyətləri | T.32 – Nağd pul daşıyıcıları | T.33 - Statistika | T.34 – Təlimat və geriyəməlumatlandırma | T.35 - Sanksiyalar | T.36 – Beynəlxalq alətlər |
| Əsasən uyğun | Əsasəsn uyğun | Qismən uyğun | Qismən uyğun | Uyğun deyil | Əsasən uyğun |
| T.37 – Qarşılıqlı hüquqi yardım | T.38 – Qarşılıqlı hüquqi yardım: dondurma və müsadirə | T.39 – Ekstradisiya | T.40 – Beynəlxalq əməkdaşlığın digər formaları | | |
| Əsasən uyğun | Əsasən uyğun | Əsasən uyğun | Əsasən uyğun | | |



Təsdiq olunmuş yekun hesabata əsasən, Respublikamız bu sahədə beynəlxalq standartları müəyyən edən və ölkələrin uyğunluğuna nəzarət edən FATF gücləndirilmiş monitorinq tətbiq edilən ölkələrin siyahısına ("boz siyahı") daxil edilməmiş, 11 effektivlik səviyyəsi göstəricisindən 2-si "əhəmiyyətli", 8-i "orta" və yalnız 1-i "aşağı" kimi qiymətləndirilməklə 91,0 faiz uyğunluq nümayiş etdirmişdir.

Qeyd etmək lazımdır ki, MONEYVAL Komitəsinin 5-ci raund qiymətləndirmə çərçivəsində qiymətləndirdiyi 29 ölkədən 9-u, yəni 31,0 faizi "boz siyahı"ya düşmüş, onların bank əməliyyatları gücləndirilmiş müştəri uyğunluğu tədbirlərinə məruz qalmışdır ki, bu da əməliyyatların gecikməsinə və ya icra edilməməsinə, banklar arası müxbir əlaqələrin dayandırılmasına, pul axınlarında ÜDM-nin 7,6 faizi, xarici investisiyalarda isə ÜDM-nin 3,0 faizi həcmində azalmalara səbəb olur. Təcrübə göstərir ki, müxtəlif ölkələrin bu siyahıdan çıxarılması təxmini 5 ilədək müddəti əhatə edə bilir.

Azərbaycan FATF-ın 40 texniki uyğunluq standartından 7-si üzrə "tam uyğun", 22-si üzrə "əsasən uyğun", 10-u üzrə "qismən uyğun" və yalnız 1-i üzrə "uyğun deyil" kimi nəticə göstərmiş, milli qanunvericilik FATFın standartlarını ölçən 252 parametr üzrə 82,1 faiz uyğunluq təşkil etmişdir. Dünya miqyasında 161 ölkə üzrə aparılmış analoji qiymətləndirmələrin təhlilinə əsasən, Azərbaycan 40 standartdan 12-si üzrə dünya ölkələrinin orta göstəricisindən daha yüksək, 21-i üzrə isə orta göstəricilərə bərabər nəticə göstərmişdir. Azərbaycan qanunvericiliyin tətbiqinin effektivliyinin 11 göstəricisindən 4-ü üzrə dünya ölkələrinin orta göstəricisindən daha yüksək, 6-sı üzrə isə orta göstəricilərə bərabər nəticə əldə etmişdir. Bu məlumatlar sxematik olaraq aşağıda təqdim olunur.

**Qanunvericiliyin tətbiqinin effektivliyi üzrə**






Sxematik təsvirdən göründüyü kimi, Respublikamız qanunvericiliyin tətbiqinin effektivliyinin qiymətləndirilməsi göstəriciləri olan 5 saylı "Hüquqi şəxslər və təsisatlar", 7 saylı "ƏL üzrə istintaq və təqib", 9 saylı "TM üzrə istintaq və təqib" və 11 saylı "KQSYM üzrə maliyyə sanksiyaları" Birbaşa Nəticələr üzrə 161 ölkənin müvafiq məlumatlarına əsasən müəyyən edilmiş orta göstəricilərdən daha yüksək nəticə nümayiş etdirmişdir.

**Texniki uyğunluq üzrə**

*Azərbaycan üzrə*




*161 ölkə üzrə orta göstəricilər*






Həmçinin, Respublikamız texniki uyğunluğun qiymətləndirilməsi göstəriciləri olan 2 saylı "Milli səviyyədə əməkdaşlıq və koordinasiya", 6 saylı "Hədəfli maliyyə sanksiyaları – terrorçuluq və TM", 7 saylı "Hədəfli maliyyə sanksiyaları – KQSYM", 11 saylı "Məlumatların saxlanılması", 12 saylı "Siyasi nüfuzlu şəxslər", 13 saylı "Korr-bankçılıq", 17 saylı "Üçüncü şəxslərə güvənmə", 19 saylı "Yüksək riskli ölkələr", 22 saylı "Qeyri-maliyyə institutları: müştəri uyğunluğu tədbirləri", 23 saylı "Qeyri-maliyyə institutları: digər tədbirlər", 25 saylı "Hüquqi şəxslərin şəffaflığı və benefisiar mülkiyyətçilik", 29 saylı "Maliyyə kəşfiyyatı orqanı" Tövsiyyələr üzrə də müəyyən edilmiş orta göstəricilərdən daha yüksək nəticə nümayiş etdirmişdir.
2023-cü il ərzində Xidmət tərəfindən 2015-2021-ci illəri əhatə edən milli risk qiymətləndirilməsi nəticəsində aşkar edilmiş zəifliklərin aradan qaldırılması, milli ƏL/TMM sisteminin effektivliyinin artırılması, ölkədaxili və beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 fevral tarixli 3773 nömrəli Sərəncamı ilə təsdiq edimiş "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2023-2025-ci illər üzrə Milli Fəaliyyət Planı"nın (bundan sonra – MFP) icrası üzrə tədbirlər həyata keçirilmişdir.

Bununla əlaqədar, müştəri profili məlumatlarının toplanması və risklərinin qiymətləndirilməsi sahəsində tədbirlər həyata keçirilmiş, irihəcmli nağd əməliyyatlar üzrə monitorinq sistemi formalaşdırılmış, birdəfəlik əməliyyatların siyahısı müəyyən edilmiş, hesabına dövlət büdcəsindən vəsaitlər daxil olan subyektlər araşdırılmış, müvafiq sahə üzrə təlimlər keçirilmiş, nəzarət və hüquq mühafizə orqanları ilə əməkdaşlıq çərçivəsi genişləndirilmiş, strateji təhlil məhsulları və qanunvericilik aktlarının layihələri hazırlanmış, hədəfli maliyyə sanksiyalarının tətbiqi ilə bağlı tədbirlər görülmüşdür. Hesabat dövrü ərzində "Hüquqi şəxslərin və hüquqi təsisatların benefisiar mülkiyyətçilərinin müəyyən edilməsinə dair metodologiya", "Öhdəlik daşıyan şəxslər tərəfindən şel şirkətlərin müəyyən edilməsi meyarları", "ƏL/TMM sahəsində qeyri-maliyyə institutları və peşə sahibləri üzrə sahəvi risklərin qiymətləndirilməsinə dair metodologiya", "Öhdəlik daşıyan şəxslər tərəfindən ƏL/TMM Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi üzrə nümunəvi qaydalar", "Müştəri profili üzrə risk dərəcəsinə müvafiq olaraq irihəcmli hesab edilə bilən nağd əməliyyatların araşdırılması metodologiyası", "Maliyyə təhqiqatları üzrə təlimat" kimi metodoloji vəsaitlər hazırlanaraq aidiyyəti orqanlara təqdim edilmişdir.

Eyni zamanda, 2022-ci il ərzində hesabına dövlət büdcəsindən birbaşa vəsait daxil olan 4105, dolayı yolla vəsait daxil olan 32 224 hüquqi şəxs təsisçiləri, rəhbərləri, bank hesablarına imza səlahiyyətli şəxsləri, işçi sayı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 iyul tarixli 265 saylı Qərarı ilə təsdiq edilmiş "Riskli vergi ödəyicisinin, o cümlədən riskli əməliyyatların meyarları" ilə müəyyən edilmiş riskli vergi ödəyicilərinin siyahısında olması əsasında təhlil edilmiş və yüksək riskli hesab edilə biləcək ümumi dövriyyəsi 39,3 milyon manat olan 63 hüquqi şəxs müəyyən edilmişdir. Strateji təhlil nəticəsində əldə olunmuş məlumatlar cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əlamətlərinin müəyyən edilməsi məqsədilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə göndərilmişdir.
Həmçinin, öhdəlik daşıyan şəxslərdən alınan bank hesabları üzrə imza səlahiyyətli şəxslər barədə məlumatların benefisiar mülkiyyətçilər barədə bazada yığılması təmin edilmiş, toplanmış məlumatların təhlili nəticəsində (hüquqi şəxslərin hesablarına imza səlahiyyəti olan şəxslər, təsisçi, rəhbər məlumatları) eyni benefisiar mülkiyyətçi

ilə bağlılığı ehtimal olunan, şel şirkətlərin fəaliyyəti üçün xarakterik əlamətlərə malik olan (işçi sayı, dövriyyə, eyni hüquqi şəxs ilə bağlılıq və s. meyarlar üzrə) 2022-ci il üzrə ümumi dövriyyəsi 1 milyard 370,0 milyon manat təşkil edən 1709 hüquqi şəxsin bank hesablarının 103 şəxs tərəfindən idarə edildiyi müəyyən edilmiş, vergi nəzarəti tədbirləri zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi əlamətlərinin müəyyən edilməsi məqsədilə Dövlət Vergi Xidmətinə göndərilmişdir.

Bundan başqa, ƏL/TMM sahəsində dövlət qurumları ilə əməkdaşlığın inkişaf etdirilməsi məqsədilə hüquq mühafizə və nəzarət orqanları ilə yaradılmış işçi qruplar çərçivəsində bu sahənin çağırışları, beynəlxalq təcrübə, qanunvericilik və onun tətbiqinin aktual məsələləri müzakirə edilmişdir. İlk növbədə “Cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması cinayətinə dair işlər üzrə məhkəmə təcrübəsi, habelə cinayət yolu ilə əldə edildiyini bilə-bilə pul vəsaitlərini və ya digər əmlakı əldə etmə, onlara sahiblik və ya onlardan istifadə etmə, yaxud sərəncam vermə cinayətinə dair bəzi məsələlər haqqında” Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 2023-cü il 20 fevral tarixli qərarından irəli gələn tövsiyələri və MFP-in müvafiq bəndi ilə nəzərdə tutulan CM-in 193-1-ci maddəsinə təklif olunan dəyişikliklərin müzakirəsi aparılmışdır.
Xidmət tərəfindən 2023-cü il üzrə MFP-nin icrası barədə hesabat 2024-cü il 15 yanvar tarixində Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına və Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasına təqdim edilmişdir.
Nazirlər Kabinetinin “Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sisteminin risk qiymətləndirilməsinin dövri qaydada keçirilməsinin təmin edilməsinə, müvafiq sahədə həyata keçiriləcək qiymətləndirilməyə hazırlığın təşkil olunmasına və bu məqsədlərlə koordinasiya mexanizminin yaradılmasına dair bəzi tədbirlər haqqında” 2020-ci il 21 oktyabr tarixli 404 nömrəli Qərarı ilə yaradılmış Koordinasiya Şurası 2023-cü ildə fəaliyyətini davam etdirmiş, Şuranın 3 iclası keçirilmiş, bu iclaslarda ölkənin müvafiq sahə üzrə mübarizə sisteminin gücləndirilməsi istiqamətində bir sıra qərarlar qəbul olunmuşdur.

Şuranın 2023-cü il 17 fevral tarixli iclası əsasən MONEYVAL-ın 5-ci raund qiymətləndirməsinə hazırlıq işlərinin tamamlanmasına həsr olunmuş, müvafiq hüquqi aktların qəbulunun sürətləndirilməsi ilə bağlı qərarlar qəbul edilmiş və aidiyyəti orqanlara tapşırıqlar verilmişdir.
2023-cü il 8 may tarixində keçirilmiş iclasda MONEYVAL Komitəsi tərəfindən aparılmış qiymətləndirmənin ilkin hesabat layihəsi, layihənin Xidmət tərəfindən təhlil edilməsi nəticəsində aşkar edilmiş çatışmazlıqlar müzakirə edilmiş, bu çatışmazlıqların aradan qaldırılması üçün görüləcək işlərin yol xəritəsi müəyyən edilərək aidiyyəti orqanlara tapşırıqlar verilmişdir.

2023-cü il 28 dekabr tarixli iclas qiymətləndirmənin nəticələrinə həsr edilmiş, Xidmətin İdarə Heyətinin sədri iclasda məruzə ilə çıxış edərək əldə olunan reytinqlər, aşkar edilmiş çatışmazlıqlar və qiymətləndiricilər tərəfindən verilmiş tövsiyələri Koordinasiya Şurasının üzvlərinin diqqətinə çatdırmışdır. İclasda çatışmazlıqların aradan qaldırılması üçün Xidmət tərəfindən hazırlanmış və aidiyyəti qurumlarla razılaşdırılmış icrası 2024-cü il üçün nəzərdə tutulmuş 77 tədbiri əhatə edən Koordinasiya Şurasının Qısamüddətli İş planı, MONEYVAL Komitəsi tərəfindən 6-cı



raund qiymətləndirmənin daha səmərəli şəkildə həyata keçirilməsi məqsədilə ölkə üzrə statistik və digər məlumatların yığılmasını təmin edəcək 81 cədvəl forması təsdiq edilmişdir. Cədvəllərdə toplanılması nəzərdə tutulan məlumatlar qiymətləndirmənin əhatə etdiyi koordinasiya, beynəlxalq və daxili əməkdaşlıq, nəzarət, preventiv tədbirlər, hüquq mühafizə orqanlarının fəaliyyəti, maliyyə kəşfiyyatı və aktivlərin bərpası məsələlərini ehtiva edir. Həmçinin, iclasda müvafiq risk qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə işçi qruplar yaradılmış, Koordinasiya Şurası Katibliyinin tərkibi müəyyən edilmişdir.

# Məlumatların emalı və təhlili üzrə fəaliyyətlər

2023-cü ildə Xidmətdə 331 öhdəlik daşıyan şəxs qeydiyyatdan keçmişdir ki, bu da 2022-ci il üzrə müvafiq göstəricidən (31) 10,7 dəfə çoxdur. 2023-cü ilin sonuna qeydiyyatdan keçmiş öhdəlik daşıyan şəxslərin ümumi sayı 862 vahid təşkil etmişdir.
2023-cü ildə 414 məsul şəxs qeydiyyatdan keçmişdir ki, bu da 2022-ci il üzrə müvafiq göstəricidən (41) 10,1 dəfə çoxdur.
2023-cü ildə öhdəlik daşıyan şəxslər tərəfindən Xidmətə təqdim edilmiş şübhəli hesabatların sayı 1 501 vahid təşkil etmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (1 086) 415 vahid və ya 38,2 faiz çoxdur. Qeyd olunan hesabatlarda əməliyyat məbləği isə 8 milyard 385,5 milyon manat təşkil etmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (2 milyard 127,2 milyon manat) 6 milyard 258,3 milyon manat və ya 3,9 dəfə çoxdur.

2023-cü ildə 29 maliyyə institutu tərəfindən məbləğ limitinə əsasən göndərilən əməliyyatlar ilə bağlı 31 727 hesabat daxil olmuşdur ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (29 388) 2 339 vahid və ya 8,0 faiz çoxdur. Qeyd olunan hesabatlarda əməliyyat məbləği 77 milyard 281,7 milyon manat təşkil edir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (60 milyard 081.3 milyon manat) 17 milyard 200,4 milyon manat və ya 28,6 faiz çoxdur. Eyni zamanda 2022-ci il (500 349 əməliyyat) ilə müqayisədə hesabat dövründə təqdim olunan əməliyyatların sayında (560 114 əməliyyat) 59 765 vahid və ya 12,0 faiz artım olmuşdur.
Eyni zamanda, məbləğ limitindən asılı olmayaraq göndərilən əməliyyatların sayı 100 030 vahid və ya 32,8 faiz artaraq 405 194, əməliyyatların məbləği 647,3 milyon manat və ya 35 faiz artaraq 2 milyard 513,7 milyon manat olmuşdur.
Yüksək riskli zonalarla əlaqəli həyata keçirilən əməliyyatların sayı isə 167 803 vahid və ya 2,1 dəfə artaraq 315 395, əməliyyatların məbləği 238,3 milyon manat və ya 2,3 dəfə artaraq 424,1 milyon manat olmuşdur.

*Cədvəl 1, mln manatla*

| İl | Şübhəli hesabatların | | Məbləğ limitinə əsasən göndərilən əməliyyatların | | Məbləğ limitindən asılı olmayaraq göndərilən əməliyyatların | | Yüksək riskli zonalarla əlaqəli həyata keçirilən əməliyyatların | |
|---|---|---|---|---|---|---|---|---|
| | Sayı | Məbləği | Sayı | Məbləği | Sayı | Məbləği | Sayı | Məbləği |
| 2022 | 1 086 | 2 127,2 | 500 349 | 60 081,3 | 305 164 | 1 866,4 | 147 592 | 185,8 |
| 2023 | 1 501 | 8 385,5 | 560 114 | 77 281,7 | 405 194 | 2 513,7 | 315 395 | 424,1 |
| FƏRQ | 415 | 6 258,3 | 59 765 | 17 200,4 | 100 030 | 647,3 | 167 803 | 238,3 |



2023-cü il ərzində şübhəli hesabatların sayında müşahidə olunan artımın başlıca səbəbi "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulmuş aylıq nağdlaşdırma limitini pozan vergi ödəyiciləri ilə bağlı hesabatların (TSR1 və TSR2) 2023-cü ildən etibarən şübhəli hesabat (STR) kodu altında Xidmətə təqdim edilməyə başlanılması ilə bağlı olmuşdur.
Hesabat ili ərzində banklar tərəfindən göndərilmiş şübhəli hesabatların sayı 2022-ci ilə nisbətən (1 057) 31,8 faiz artaraq 1 393 ədəd olmuşdur. Poçt rabitəsinin milli operatoru üzrə məlumat sayı 2022-ci illə müqayisədə 41 vahid artaraq 68, notariuslar üzrə 17 vahid artaraq 18, investisiya şirkətləri üzrə isə 14 vahid artaraq 15 olmuşdur. Sığorta təşkilatları 2022-ci il ərzində məlumat təqdim etmədiyi halda, 2023-cü ildə 7 sayda məlumatı Xidmətə təqdim etmişlər.

*Cədvəl 2, mln manatla*

| | 2022 | | 2023 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Say | Məbləğ | Say | Məbləğ | Say | Məbləğ |
| Şübhəli hesabat, *o cümlədən* | 1 086 | 2 127,2 | 1 501 | 8 385,5 | 415 | 6 258,3 |
| Banklar | 1 057 | 2 119,4 | 1 393 | 8 167,8 | 336 | 6 048,4 |
| Poçt rabitəsinin milli operatoru | 27 | 6.2 | 68 | 12.4 | 41 | 6,2 |
| Notariuslar | 1 | 1,4 | 18 | 51,2 | 17 | 49,8 |
| İnvestisiya şirkətləri | 1 | 0,2 | 15 | 152,1 | 14 | 151,9 |
| Sığorta şirkətləri | - | - | 7 | 2.0 | 7 | - |

Hesabat ili ərzində öhdəlik daşıyan şəxslər tərəfindən Xidmətə təqdim olunan şübhəli əməliyyatlara dair hesabatlarda ehtimal olunan predikativ cinayətlərə və ya ƏL/TMM üzrə sxemlərə dair təsnifatı aşağıdakı qrafikdə təsvir edilmişdir.

**Ehtimal olunan predikativ cinayətlərin və ya ƏL/TM sxeminə dair məlumatların sayı**



2022-ci illə müqayisədə 2023-cü ildə Xidmətə məbləğ limitinə (20,0 min manatdan yuxarı) əsasən göndərilən hesabatlar üzrə təqdim edilən nağd mədaxil əməliyyatlarının sayı fiziki şəxslər üzrə 23 287 vahid və ya 11,4 faiz artaraq 227 581, hüquqi şəxslər üzrə isə 1 596 vahid və ya 1,1 faiz azalaraq 137 590 vahid təşkil etmişdir. Nağd mədaxil əməliyyatların məbləği isə fiziki şəxslər üzrə 1 milyard 533,6 milyon manat və ya 9,6 faiz artaraq 17 milyard 509,1 milyon manat, hüquqi şəxslər üzrə 9 milyard 294,4 milyon manat və ya 33,1 faiz artaraq 37 milyard 389.3 milyon manat təşkil etmişdir.
2022-ci ilə nisbətən nağd məxaric əməliyyatlarının sayı fiziki şəxslər üzrə 29 965 vahid və ya 20,2 faiz artaraq 178 401, hüquqi şəxslər üzrə isə 8 109 vahid və ya 96,2 faiz artım müşahidə olunmuşdur. Nağd məxaric əməliyyatların məbləği isə fiziki şəxslər üzrə 2 507.5 milyon manat və ya 17,0 faiz artaraq 17 220.0 milyon manat, hüquqi şəxslər üzrə 3 865 milyon manat və ya 297,7 faiz artaraq 5 163.3 milyon manat təşkil etmişdir.
2022-ci ilə nisbətən ötən il ərzində Xidmətə təqdim edilən xarici siyasi nüfuzlu fiziki şəxslərin mədaxil əməliyyatlarının sayı 4120 vahid və ya 76,3 faiz artaraq 9 523, məbləği 21,1 milyon manat və ya 4,4 faiz azalaraq 460,0 milyon manat olmuşdur. Şəxslərin nağd məxaric əməliyyatlarının sayı isə 30 321 vahid və ya 89,4 faiz artaraq 64 241, məbləği isə 46.1 milyon manat və ya 15,9 faiz artaraq 335,4 milyon manat təşkil etmişdir.

*Cədvəl 3, mln manatla*

| Əməliyyatlar | 2022 | | 2023 | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Say | Məbləğ | Say | Məbləğ | Say | Məbləğ |
| Mədaxil əməliyyatları | 5 403 | 481.1 | 9 523 | 460.0 | 76.3 % | -4.4 % |
| Məxaric əməliyyatları | 33 920 | 289.3 | 64 241 | 335.4 | 89.4 % | 15.9 % |

2023-cü il ərzində xarici siyasi nüfuzlu və onlarla əlaqəli şəxslərə dair Xidmətə daxil olan 12 263 sayda hesabatın araşdırılması zamanı 13 177 sayda mədaxil və məxaric əməliyyatları üzrə 397,8 milyon manat məbləğində vəsaitin 102 nəfər xarici siyasi nüfuzlu və onlarla əlaqəli şəxslərə və yaxud onların ailə üzvlərinə aid olduğu müəyyən edilmişdir. Bunlar arasında Rusiya, Türkiyə, Gürcüstan və Ukrayna vətəndaşları olan şəxslər üstünlük təşkil etmişdir.
Hesabat dövrü ərzində həmin şəxslər tərəfindən 1 081 sayda 226,6 milyon manat məbləğində mədaxil, 12 096 sayda 171,2 milyon manat məbləğində məxaric əməliyyatı aparılmışdır. Mədaxil əməliyyatlarının 943 sayda 140,5 milyon manat məbləğində hissəsi, yəni 87,2 faizi Azərbaycan Respublikası daxilində həyata keçirilmiş, 138 sayda 86,1 milyon manat məbləğində vəsait isə xaricdən Respublikamıza mədaxil edilmişdir. Məxaric əməliyyatlarının 9 507 sayda 111,7 milyon manat məbləğində hissəsi, yəni 78,6 faizi Azərbaycan Respublikası daxilində həyata keçirilmiş, 2 589 sayda 59,5 milyon manat məbləğində vəsait isə Respublikamızdan xaricə məxaric edilmişdir. Hesabatlarda 4 243 sayda əməliyyat üzrə 6,8 milyon manat məbləğində vəsaitin 40 nəfər xarici dövlətlərin səfirlərinə və yaxud onların ailə üzvlərinə aid olduğu müəyyən edilmişdir.
Hesabat dövründə beynəlxalq məlumat mübadiləsi çərçivəsində Xidmətə 22 ölkənin xarici maliyyə kəşfiyyatı orqanı tərəfindən 39 sorğu (2022-ci ildə 38), 8 ölkədən spontan qaydada 18 məlumat (2022-ci ildə 23) daxil olmuş, Xidmət tərəfindən isə 61 ölkəyə 110 sorğu (2022-ci ildə 18), 14 ölkəyə isə spontan qaydada 16 məlumat (2022-ci ildə 19) göndərilmişdir.



*Cədvəl 4*

| | 2022-ci il üzrə xarici MKO-larla məlumat mübadiləsi | | 2023-cü il üzrə xarici MKO-larla məlumat mübadiləsi | | Fərq | |
|---|---|---|---|---|---|---|
| | Say | Ölkə sayı | Say | Ölkə sayı | Say | Ölkə sayı |
| Göndərilən | 37 | 32 | 126 | 64 | 3,4 dəfə | 2 dəfə |
| Daxil olan | 61 | 29 | 57 | 25 | -6,6% | -13,8% |

Hesabat ili ərzində 64 ölkənin xarici maliyyə kəşfiyyatı orqanlarına 126 sorğu/məlumat göndərilmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (37) 89 vahid və ya 3,4 dəfə çoxdur. Sorğuların göndərildiyi ölkələrin sayı isə 2022-ci ilin müvafiq göstəricisindən (32) 32 vahid və ya 100 faiz daha çox olmuşdur.
2023-cü ildə göndərilən sorğuların/məlumatların 48,4 faizi Türkiyə, Rusiya, ABŞ, Ukrayna, BƏƏ, İsveçrə, Gürcüstan, Belarus, Litva, İtaliya, Birləşmiş Krallıq və Kiprin payına, 51,6 faizi isə 52 fərqli ölkənin payına düşmüşdür.

## Xarici MKO göndərilən sorğuların ölkələr üzrə bölgüsü



Həmçinin ötən il ərzində Xidmətə 25 ölkənin maliyyə kəşfiyyatı orqanından 57 məlumat daxil olmuşdur ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən 4 vahid və ya 6,6 faiz daha azdır. Məlumatın daxil olduğu ölkələrin sayı isə 2022-ci ilin müvafiq göstəricisindən 4 vahid və ya 13,8 faiz daha az olmuşdur.
Hesabat ilində daxil olmuş məlumatların 24,6 faizi Rusiyanın, 12,3 faizi Türkmənistanın, 10,5 faizi Latviyanın, 7,0 faizi Almaniyanın, 5,3 faizi Ukraynanın, 3,5 faizi müvafiq olaraq İtaliya, Çexiya və Maltanın, 1,8 faizi isə müvafiq olaraq Hindistan, Estoniya, Lixtenşteyn, Türkiyə, Norveç, Niderland, Man adası, Seyşellər, BƏƏ, Bəhreyn, Polşa, İsrail, Belarus, Vanuatu, Kipr, Filippinlər və Macarıstanın payına düşmüşdür.

### Xarici MKO-dan daxil olmuş sorğuların ölkələr üzrə bölgüsü




2023-cü ildə Xidmət tərəfindən hüquq-mühafizə orqanlarına 38 məlumat ötürülmüşdür ki, bu da 2022-ci illə müqayisədə (20 məlumat) 18 vahid və ya 90 faiz çoxdur. Daxil olmuş şübhəli əməliyyatlara dair hesabatların 525 və yaxud 34,9 faizi həmin məlumatların tərkibində hüquq-mühafizə orqanlarına təqdim edilmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (4,8 faiz) 30,1 bənd yüksəkdir. 2023-cü ildə Xidmət tərəfindən hüquq-mühafizə orqanlarına 8 213 fiziki və hüquqi şəxs barədə məlumat ötürülmüşdür ki, bu da 2022-ci illə müqayisədə (632 fiziki və hüquqi şəxs) 13 dəfə çoxdur.

*Cədvəl 5*

| İl | Daxil olan şübhəli hesabatlar | Göndərilən məlumat | | | Nisbət (STR) |
|---|---|---|---|---|---|
| | | Say | Tərkibində şübhəli hesabat sayı | Fiziki və hüquqi şəxslərin sayı | |
| 2022 | 1 086 | 20 | 52 | 632 | 4,8% |
| 2023 | 1 501 | 38 | 525 | 8213 | 34,9% |



2022-ci illə müqayisədə 2023-cü il ərzində hüquq-mühafizə orqanlarına ötürülmüş məlumatlardakı şübhəli hesabatların sayındakı artım Dövlət Vergi Xidmətinə təqdim olunan məlumatların artan həcmi ilə bağlı olmuşdur. Belə ki, 525 hesabatın 406-ı 4664 şəxsin vergi cinayətləri ilə əlaqəli olduğundan, 3 məlumat əsasında aidiyyəti üzrə Dövlət Vergi Xidmətinə təqdim edilmişdir.

Xidmət tərəfindən ötürülmüş məlumatların hüquq-mühafizə orqanları üzrə bölgüsü aşağıdakı kimi olmuşdur:

*Cədvəl 6*

| Hüquq-mühafizə orqanı | 2022 | | | 2023 | | | Fərq | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | Məlumat sayı | Tərkibində şəxs sayı | Məbləğ | Məlumat sayı | Tərkibində şəxs sayı | Məbləğ | Məlumat sayı | Tərkibində şəxs sayı | Məbləğ |
| Baş Prokurorluq | 8 | 283 | 26.1 | 9 | 708 | 84.1 | 12.5 % | 2,5 dəfə | 3,2 dəfə |
| DİN | 1 | 32 | 1.1 | 15 | 62 | 1.6 | 15 dəfə | 1,9 dəfə | 45.5 % |
| DTX | 9 | 308 | 0.5 | 9 | 35 | 2.9 | 0.0 | - 8,8 dəfə | 5,8 dəfə |
| DVX | 2 | 9 | 0.6 | 4 | 7407 | 1206.5 | 2 dəfə | 823 dəfə | 2010 dəfə |
| DGK | 0 | 0 | 0 | 1 | 1 | 0.6 | 100.0 % | 100% | 100.0 % |
| Ümumi | 20 | 632 | 28.3 | 38 | 8213 | 1 295.7 | 90.0 % | 13 dəfə | 45,8 dəfə |

2022-ci illə müqayisədə 2023-cü ildə hüquq-mühafizə orqanlarından daxil olan sorğuların sayı 32 vahid və ya 64,0 faiz artaraq 82 məlumatı təşkil etmişdir. 2022-ci ilə nisbətən 2023-cü ildə daxil olan sorğuların sayı Daxili İşlər Nazirliyi, Dövlət Gömrük Komitəsi, Dövlət Təhlükəsizliyi Xidməti üzrə daha çox artmışdır.

*Cədvəl 7*

| Hüquq-mühafizə orqanı | 2022 | 2023 | Fərq |
|---|---|---|---|
| Baş Prokurorluq | 35 | 24 | -31,4 % |
| DİN | 1 | 19 | 19,0 dəfə |
| DTX | 7 | 20 | 2,9 dəfə |
| DVX | 4 | 9 | 2,2 dəfə |
| DGK | 1 | 10 | 10 dəfə |
| Ümumi | 50 | 82 | 64,0 % |

2023-cü il ərzində Xidmət tərəfindən hüquq-mühafizə orqanlarına təqdim edilmiş məlumatlar əsasında 29 cinayət işi açılmış, bunlardan 25-i Cinayət Məcəlləsinin (CM) 193-1-ci maddəsi, 1-i CM-nin 206-1-ci və 3-ü CM-nin digər maddələri ilə bağlı olmuşdur.




2023-cü ildə “Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər”i çərçivəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların öz fəaliyyətləri üzrə və institusional risk qiymətləndirmələrinin nəticələri nəzərə alınmaqla müəyyən etdikləri spesifik meyarlar Xidmət tərəfindən ətraflı təhlil olunaraq müəyyən əlamətlər üzrə ümumiləşdirilmiş və banklara şübhəli əməliyyatların və halların müəyyən edilməsi istiqamətində əlavə meyarlar təqdim edilmişdir.
Xidmət tərəfindən aparılmış təhlillər nəticəsində iki yeni tipologiya, “Satınalmalar üzrə dövlət vəsaitlərinin qanunsuz üstünlük ilə əldə edilərək əvvəlcədən əlbir olan qrup tərəfindən nağdlaşdırılması və leqallaşdırılması” və “Hüquqi şəxslər ilə fiziki şəxslər arasında notarial qaydada bağlanmış borc (və ya tapşırıq) müqavilələri əsasında hüquqi şəxslərə məxsus vəsaitlərin nağdlaşdırılması” barədə tipologiyalar hazırlanaraq hüquq-mühafizə orqanlarına təqdim edilmiş və rəsmi saytda dərc olunmuşdur.

Eyni zamanda, Xidmət tərəfindən aparılan strateji təhlillər zamanı 2022-ci il ərzində 4 milyon nəfərə yaxın şəxsin bank hesablarına ödəniş terminalları vasitəsilə daxil olmuş vəsaitin 90,4 faizinin kiçik məbləğlərlə çoxlu sayda əməliyyatlar çərçivəsində aparılması müəyyən edilmişdir ki, bu da əsas mənbənin və təyinatın yayındırılmasına cəhd edildiyini ehtimal etməyə əsas vermişdir. Qeyd olunanların maliyyə sektorunda cinayət yolu ilə əldə olunmuş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi baxımından kifayət qədər təhdidlər yaratdığını nəzərə alaraq, xüsusilə riskli hesab olunan və dövriyyəsi 553,1 milyon manat təşkil edən 1814 fiziki şəxs barədə məlumat vergidən yayınma hallarının mövcudluğunun araşdırılması məqsədilə Dövlət Vergi Xidmətinə göndərilmişdir.
2023-cü il ərzində Xidmətə göndərilən şübhəli əməliyyatlara dair məlumatların keyfiyyətinin yüksəldilməsi məqsədilə geriyə məlumatlandırma qaydalarına uyğun olaraq öhdəlik daşıyan şəxslərə məlumat göndərilmişdir.

“Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin nəzarət orqanlarının və müəyyən edilmiş digər orqanların (qurumların) informasiya resurslarının istifadəyə buraxılış dərəcəsinin (alınan məlumatların dairəsinin) müəyyən edilməsi barədə” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 sentyabr tarixli 359 nömrəli Qərarının icrası ilə bağlı Xidmət tərəfindən 12 dövlət qurumlarının məlumat bazaları ilə inteqrasiya işləri həyata keçirilərək 499 sayda məlumat üzrə mübadilə aparılır.



## Qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görülən işlər

Hesabat dövründə Xidmət tərəfindən 2023-cü il 1 fevral tarixində qüvvəyə minmiş “Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında” və “Hədəfli maliyyə sanksiyaları haqqında” Azərbaycan Respublikasının Qanunlarından irəli gələn tələblərə uyğun olaraq bir sıra normativ xarakterli aktlar qəbul edilmişdir.

Belə ki, “Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər”, “Müştəri uyğunluğu və yeni texnologiyaların tətbiqi zamanı verifikasiya tədbirlərinə, risk faktorlarının müəyyən edilməsinə və müştəri profilinin risk qruplarına aid edilməsinə dair Qaydalar”, “Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin müqabilində öhdəlik daşıyan şəxslərin, auditor xidməti göstərən şəxslərin, dini qurumların, qeyri-hökumət təşkilatlarının, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin geriyə məlumatlandırılmasına dair Qaydalar”, “Öhdəlik daşıyan şəxslər, habelə auditor xidməti göstərən şəxslər tərəfindən məlumat və sənədlərin Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilməsi Qaydası”, maliyyə institutlarının Xidmətə məlumat və sənədlər təqdim etməli olduqları nağd şəkildə həyata keçirilən əməliyyatların, maliyyə vəsaitlərinin elektron köçürülməsi əməliyyatlarının məbləğinin minimum həddi, əməliyyatları icra etmədən məlumat və sənədlər təqdim etməli olduqları əməliyyatların məbləğinin minimum həddi müəyyən edilmişdir.

Eyni zamanda, “Hədəfli maliyyə sanksiyalarının tətbiqinə dair Təlimat” hazırlanaraq Xidmətin rəsmi saytında dərc edilmişdir.



Bundan başqa, milli qanunvericiliyin beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması prosesi istiqamətində layihələr Xidmət tərəfindən hazırlanmış "Terrorçuluğun və terrorçuluğun maliyyələşdirilməsinin, kütləvi qırğın silahlarının yayılmasının və yayılmasının maliyyələşdirilməsinin qarşısının alınması məqsədilə Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş və sanksiya tətbiq edilməli fiziki şəxslər və qurumları müəyyən edən qətnamələrin Siyahısı"nın təsdiq edilməsi haqqında, "Yüksək riskli zonalara münasibətdə tətbiq edilə bilən məhdudiyyətlərin və xüsusi tələblərin Siyahısının təsdiqi haqqında", "Yüksək riskli zonaların müəyyən edilmə əsaslarının təsdiqi haqqında", "Valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinə təqdim edilən məlumat və sənədlərin tərtib olunma forması"nın təsdiq edilməsi haqqında", "Aktivləri dondurulmuş fiziki şəxslərin və qurumların dondurulmuş aktivlərdən zəruri və gözlənilməz xərclərə ehtiyacının ödənilməsi Qaydası"nın təsdiq edilməsi barədə" Nazirlər Kabinetinin qərarları qəbul edilmişdir.

Həmçinin, 2023-cü il 13 dekabr tarixində layihəsi Xidmət tərəfindən hazırlanan "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına, terrorçuluğun maliyyələşdirilməsinə, kütləvi qırğın silahlarının yayılmasına və yayılmasının maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində Koordinasiya Şurasının" mandatını və tərkibini müəyyən edən Nazirlər Kabinetinin Qərarı qəbul edilmişdir.
Eyni zamanda, İnzibati Xətalar Məcəlləsinin 598-ci maddəsində nəzərdə tutulmuş bir sıra inzibati xətalar haqqında işlər üzrə Xidmət əməkdaşlarının protokol tərtib etmə səlahiyyətinin müəyyən edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"na müvafiq dəyişiklik edilmişdir.

Bundan başqa, milli fəaliyyət planlarının icrası məqsədilə benefisiar mülkiyyətçi institutunun tətbiqi ilə bağlı, dövlət satınalmaları üzrə maliyyə əməliyyatlarının monitorinqi mexanizminin yaradılması ilə bağlı, Xidmətin informasiya sisteminə inteqrasiya edilən informasiya sistemlərindən (ehtiyatlarından) əldə olunan məlumatların dairəsinin müəyyən edilməsi barədə, valyuta sərvətləri və milli valyutanın transsərhəd daşınması zamanı hərəkətinin dayandırılması barədə normativ hüquqi aktların layihələri hazırlanmış və bir qismi razılaşdırılaraq yuxarı orqanlara təqdim edilmişdir.

Qeyd edilənlərdən əlavə, "Yüksək riskli zonaların və öhdəlik daşıyan şəxslər tərəfindən onlara münasibətdə tətbiq edilən məhdudiyyətlərin və xüsusi tələblərin Siyahısı" Xarici İşlər Nazirliyi ilə razılaşdırılmaqla Xidmətin İdarə Heyətinin Qərarı ilə təsdiq edilərək nəzarət orqanları vasitəsilə öhdəlik daşıyan şəxslərə göndərilmişdir.



## Ölkədaxili əməkdaşlıq



2023-cü ildə Xidmət tərəfindən öhdəlik daşıyan şəxslər, nəzarət orqanları, məhkəmə və hüquq mühafizə orqanları, eləcə də müxtəlif dövlət qurumları və qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın gücləndirilməsi istiqamətində mühüm işlər görülmüş, ictimai əlaqələr genişləndirilmiş, media subyektləri ilə əlaqələr qurulmuş və mütəmadi olaraq ictimaiyyətə lazımi məlumatlar təqdim edilmişdir.
Xidmətə telefon, e-poçt və sosial şəbəkə hesablarının yazışma və şərh paneli vasitəsilə daxil olmuş müraciətlər müvafiq qaydada cavablandırılmış, MMX-nin fəaliyyəti ilə bağlı mühüm hadisələr rəsmi veb-səhifədə və sosial platforma hesablarında işıqlandırılmışdır.

Hesabat ili ərzində xüsusiləşdirilmiş əməkdaşlıq çərçivəsində nəzarət və hüquq mühafizə orqanlarının əməkdaşlarından ibarət işçi qruplar formalaşdırılmış, mütəmadi görüşlər təşkil edilmişdir. Hüquq mühafizə orqanları ilə yaradılmış işçi qrupların görüşlərində (ümumilikdə 12 görüş keçirilmiş) cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması cinayətinin tövsifi, cinayət təqibinin həyata keçirilməsi zamanı maliyyə təhlili məlumatlarından istifadə edilməsi təcrübəsinin genişləndirilməsi, terrorçuluğun maliyyələşdirilməsi cinayətlərinin istintaqı üzrə nümunələrin, təcrübələrin, habelə terrorçuluğun maliyyələşdirilməsi sxemləri və müşahidə olunan tendensiyalar, sistematik geriyəməlumatlandırma, cinayət işləri üzrə vahid statistik bazanın formalaşdırılması və digər məsələlər üzrə müzakirələr aparılmışdır.

Nəzarət orqanları ilə formalaşdırılmış işçi qrupların görüşlərində (ümumilikdə 6 görüş keçirilmiş) sahəvi risklərin və meyarların müəyyən edilməsi, benefisiar mülkiyyətçilərin müəyyənləşdirilməsi mexanizminin işləkliyi və səmərəliliyi, siyasi nüfuzlu şəxslər, onların yaxın qohumları və ya yaxın münasibətdə olduğu şəxslərin müəyyən edilməsi, öhdəlik daşıyan şəxslər tərəfindən vətəndaş qüsursuzluğu tələblərinə əməl edilməsi, müştəri profili risklərinin müəyyənləşdirilməsi və sair məsələlər üzrə müzakirələr aparılmışdır.

Bununla yanaşı, nəzarət (Dövlət Vergi Xidməti, Vəkillər Kollegiyası, Auditorlar Palatası) və hüquq mühafizə (Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Dövlət Gömrük Komitəsi) orqanları ilə qarşılıqlı əməkdaşlığa dair imzalanmış Anlaşma Memorandumlarına əsasən ƏL/TMM sahəsində qəbul edilmiş milli fəaliyyət və tədbirlər planları üzrə onlara həvalə edilmiş tədbirlərin birgə icrası, strategiyaların hazırlanması, vahid statistik bazanın formalaşdırılması, ekspert və metodoloji dəstəyin göstərilməsi, analitik təhlillərin aparılması, beynəlxalq təcrübənin öyrənilməsi istiqamətləri üzrə əlaqəli fəaliyyətin həyata keçirilməsi və sair məsələlər üzrə razılıq əldə olunmuşdur.

Həmçinin, Bakı Ağır Cinayətlər məhkəməsinin hakimləri ilə də görüş təşkil edilərək ƏL/TMM sahəsində əməkdaşlığın davam etdirilməsi məqsədilə işçi qrupun yaradılması barədə razılıq əldə edilmişdir.

| | | DİN | DTX | KQMBİ | DVX | DGK | Vəkillər Kollegiyası | Auditorlar Palatası | Mərkəzi Bank | Ədliyyə Nazirliyi |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| əməkdaşlıq çərçivəsi | işçi qrup | + | + | + | + | + | + | + | + | + |
| | anlaşma memorandumu | + | + | + | + | | + | + | | |

2023-cü il ərzində Xidmət tərəfindən nəzarət və hüquq mühafizə orqanlarının təlim ehtiyacları öyrənilmiş, təsdiq edilmiş illik təlim planı tam icra edilmişdir. İl ərzində "ƏL/TMM sisteminin effektivliyi", "Pulların leqallaşdırılması və vergidən yayınma sxemləri", "ƏL/TMM sahəsində əməkdaşlığın əhəmiyyəti və məlumat mübadiləsi", "Benefisiar mülkiyyətçinin müəyyən edilməsi qaydası və üsulları", "Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramına dair tələblər", "ƏL/TMM Qanununda nəzərdə tutulmuş öhdəliklər", "Risk indikatorlarının müəyyən edilməsi", "QHT-lərdən sui-istifadə riskləri", "Maliyyə istintaqının forma və metodları" və s. müvafiq mövzular üzrə dövlət qurumları ilə birgə təşkil edilmiş 16 təlimdə hüquq mühafizə, nəzarət orqanları, QHT və ictimai birlikləri, o cümlədən öhdəlik daşıyan şəxslərdən ümumilikdə 700-ə yaxın dinləyici iştirak etmişdir.

Eyni zamanda, BMT-nin Təhlükəsizlik Şurasının İŞİD və ƏL-QAİDƏ Sanksiya Komitəsinin "Terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə çərçivəsində barəsində sanksiya tətbiq edilməli olan şəxslərin Ümumi Siyahısı"nın 2023-cü ildə 4 dəfə yenilənməsi barədə nəzarət orqanlarına, öhdəlik daşıyan şəxslərə məlumatın ötürülməsi təmin edilmiş və rəsmi internet resurslarında məlumat paylaşılmışdır.
Xidmət tərəfindən Türkiyənin maliyyə monitorinqi orqanının sanksiya tətbiq edilməli şəxslərin ölkədaxili siyahısına 5 nəfərin əlavə edilməsi ilə bağlı müraciəti əsasında həmin şəxslərin qanunvericilikdə nəzərdə tutulmuş prosedura uyğun olaraq siyahıya əlavə edilməsi təmin edilmişdir.



## Beynəlxalq əməkdaşlıq

2023-cü il ərzində Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun daha da artırılması sahəsində bir sıra işlər görülmüş, əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın və məlumat mübadiləsinin genişləndirilməsi üçün Anlaşma Memorandumlarının imzalanması, kadr potensialının gücləndirilməsi, məlumat, təcrübə mübadiləsi məqsədilə Xidmətin rəhbərliyi və əməkdaşlarının müxtəlif beynəlxalq tədbirlərdə iştirakı təmin edilmişdir.
2023-cü il ərzində Avropa Şurasının Bakı ofisinin "Azərbaycanda çirkli pulların yuyulmasına qarşı mübarizənin və aktivlərin bərpası sahəsində fəaliyyətin gücləndirilməsi" layihəsi çərçivəsində əməkdaşlıq davam etdirilmiş, 30-31 yanvar tarixlərində Avropa Şurasının Bakı nümayəndəliyi, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Tədris Mərkəzi ilə birlikdə "Çirkli pulların yuyulması və vergidən yayınma sxemləri" seminar keçirilmişdir.

Bununla yanaşı, 7 dekabr tarixində Xidmətin əməkdaşı "Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə" layihəsinin rəhbər komitəsinin ikinci iclasında çıxış edərək il ərzində layihə çərçivəsində keçirilmiş tədbirlərin əhəmiyyətindən bəhs etmiş və gələcəkdə layihənin işinin təkmilləşdirilməsi istiqamətində öz tövsiyələrini vermişdir.

İl ərzində "Eqmont Qrupu" (EQ) çərçivəsində keçirilmiş tədbirlərdə Xidmətin əməkdaşları həm iştirakçı, həm ekspert qismində öz töhfələrini vermiş, 30 yanvar- 3 fevral tarixlərində Seneqal Respublikasının Dakar şəhərində işçi və regional qruplarının növbəti görüşündə Üzvlük, dəstək və uyğunluq işçi qrupunun sədri vəzifəsini icra edən nümayəndəmiz iclasın moderatoru qismində çıxış etmişdir. O, həmçinin EQ təşkilatının əsas idarəetmə orqanı olan Eqmont Komitəsinin iclasına qatılmış və gündəlikdə olan məsələlərə dair qərarların qəbul olunmasında iştirak etmişdir.



Bununla yanaşı, “Eqmont Qrupu”nun “Üzvlük, dəstək və uyğunluq üzrə işçi qrupu”nun 4 iyul tarixində keçirilən iclasında namizədliyini irəli sürmüş üç nəfər arasından Xidmətin əməkdaşı həmin işçi qrupun rəhbəri vəzifəsinə seçilmişdir. Bundan sonra o, EQ üçün strateji əhəmiyyət daşıyan məsələlərin əlaqələndirilməsi və üzvlük proseslərinə nəzarətin həyata keçirilməsində, eyni zamanda qrupun əsas icra orqanı olan Eqmont Komitəsinin üzvü seçilərək təşkilatın idarə olunmasında iştirak edəcəkdir. Həmçinin, əməkdaşımız EQ-na üzvlük üçün müraciət etmiş Maldiv MMO-nun üzvlük ərizəsinin üzvlük meyarlarına uyğunluğuna dair hüquqi rəy vermişdir.
2023-cü il ərzində Xidmətin beynəlxalq əməkdaşlığının əhəmiyyətli hissəsi Avropa Şurasının MONEYVAL Komitəsi ilə bağlı olmuşdur. Belə ki, Azərbaycan nümayəndə heyətinin iştirak etdiyi 25 aprel tarixində Polşa Respublikasının Varşava şəhərində keçirilmiş MONEYVAL-ın yüksək səviyyəli iclasında 2023-2027-ci illəri əhatə edəcək strategiyanı nəzərdən keçirərək MONEYVAL-ın prioritetləri yüksək səviyyəli bəyannamə ilə təsdiq edilmişdir.

Eyni zamanda, 22-26 may tarixlərində Fransanın Strasburq şəhərində keçirilmiş Avropa Şurasının MONEYVAL Komitəsinin 65-ci plenar iclasında Xidmətin İdarə Heyətinin sədri Respublikamızın nümayəndə heyətinin rəhbəri qismində iştirak etmişdir. Tədbirdə Şimali Makedoniya və Rumıniyanın qarşılıqlı qiymətləndirmə hesabatları dinlənilmiş, Albaniya və Sloveniyanın tərəqqi hesabatları müzakirə və təsdiq edilmişdir. Xidmətin nümayəndəsi Şimali Makedoniyanın qiymətləndirilməsi prosesində ekspert qismində iştirak etmiş, habelə Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun Beynəlxalq əməkdaşlığın təhlili qrupunun (ICRG) Avropa/Avrasiya regional qrupunun üzvü qismində Albaniyanın Tirana şəhərində keçirilmiş növbəti iclasda Bolqarıstanın 8-ci Birbaşa Nəticə üzrə aparıcı rəyçisi olaraq tərəqqi hesabatının təhlili və yekun nəticələrin yazılması məqsədilə ölkənin nümayəndə heyəti ilə görüşmüş, digər birgə qrup üzvləri ilə nəticələri müzakirə etmişdir.

Xidmətin əməkdaşlarının potensialının gücləndirilməsi məqsədilə müxtəlif beynəlxalq təlimlərə xüsusi önəm verilmiş, 22-26 yanvar tarixlərində İsrailin Tel-Əviv şəhərində milli ƏL/TMM sisteminin terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə potensialının gücləndirilməsi mövzusunda təşkil edilən təlimdə əməkdaşlarımız iştirak etmişlər.
Bundan başqa, Xidmət 7-10 mart tarixlərində Fransanın Paris şəhərində FATF tərəfindən
təşkil edilmiş Avropa/Avrasiya birgə qrupuna cəlb olunmaq üçün potensial rəyçilər üçün təlimdə, 29 may–2 iyun tarixlərində Koreya Respublikasının Busan şəhərində FATF-ın Təlim İnstitutunda “Ölkənin ƏL/TMM tədbirlərinin təkmilləşdirməsinə aid” təlimdə, 19-23 iyun tarixlərində ABŞ-ın Nyu-York şəhərində “BMT-yə üzv dövlətlərin terrorçuluqla mübarizə üzrə səlahiyyətli dövlət qurumlarının rəhbərlərinin yüksək səviyyəli konfransı”nda, 19-21 iyun tarixlərində Qazaxıstan Respublikasının Astana şəhərində “Cinayət təqibi və çirkli pulların yuyulması və aktivlərin bərpası üzrə araşdırmaların səmərəliliyini artırmaq imkanları” mövzusunda konfransda, 25-29 sentyabr tarixlərində Tunis Respublikasının Tunis şəhərində “ƏL/TM və Yeni Texnologiyalar: Yeni Ödəniş Metodları, Virtual Aktivlər və Sosial Media” mövuzusunda regional konfransda, 10-12 oktyabr tarixlərində Avropa İttifaqı və Avropa Şurasının birgə maliyyələşdirdiyi “CyberEast” və “iPROCEED-2” layihələri çərçivəsində Türkiyə Respublikasının Antalya şəhərində “Kibercinayətkarlıq və maliyyə təhqiqatında özəl sektorla əməkdaşlıq və bu sahədə məlumat mübadiləsi” mövzusunda regional təlimdə və 4-8 dekabr tarixlərində Çin Xalq Respublikasının Sanya şəhərində Avropa Asiya qrupunun 39-cu plenar iclasında yüksək səviyyədə təmsil olunmuşdur.
Eyni zamanda, 9-10 noyabr tarixlərində Fransanın Strasburq şəhərində “Cinayət



fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında” Avropa Şurası Konvensiyasının Tərəflər Konfransının 15-ci plenar iclasında Azərbaycan Respublikasının nümayəndə heyətinin rəhbəri qismində iştirak etmiş Xidmətin İdarə Heyəti sədrinin müavini ikinci dəfə Tərəflər Konfransının büro üzvü vəzifəsinə seçilmişdir.

Beynəlxalq tədbirlərlə bağlı cədvəl aşağıda təqdim olunur.

| Tədbirin adı | Keçirildiyi yer | Tarixlər |
|---|---|---|
| Milli PL/TMM sisteminin terrorçuluğa və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə potensialının gücləndirilməsi | İsrail, Tel-Əviv | 22.01.2023 – 26.01.2023 |
| Eqmont Regional və işçi qrupların görüşləri | Seneqal, Dakar | 30.01.2023 - 03.02.2023 |
| MONEYVAL-ın yüksək səviyyəli görüşü | Polşa, Varşava | 25.04.2023 |
| MONEYVAL 65-ci sessiyası | Fransa,Strasburq | 22.05.2023 - 26.05.2023 |
| BMT-yə üzv dövlətlərin terrorçuluqla mübarizə üzrə səlahiyyətli dövlət qurumlarının rəhbərlərinin yüksək səviyyəli konfransı | ABŞ, Nyu-York | 19.06.2023 - 23.06.2023 |
| Eqmont Qrupunun 29-cu plenar iclası | BƏƏ, Əbu-Dabi | 03.07.2023 - 07.07.2023 |
| Cinayət təqibi və çirkli pulların yuyulması və aktivlərin bərpası üzrə araşdırmaların səmərəliliyini artırmaq imkanları | Qazaxıstan, Astana | 19.06.2023 - 21.06.2023 |
| Azərbaycan Respublikasının Avropa Şurasının MONEYVAL Komitəsi tərəfindən 5-ci raund qarşılıqlı qiymətləndirilməsinin növbəti mərhələsi, MONEYVAL Katibliyi və qiymətləndiricilərlə üz-üzə görüşlər | Fransa, Strasburq | 12.09.2023 – 14.09.2023 |
| “ƏL/TMM və yeni texnologiyalar: Yeni ödəniş metodları, Virtual aktivlər və sosial media” | Tunis, Tunis | 25.09.2023 - 29.09.2023 |
| “Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılması, aşkar olunması, götürülməsi və müsadirə edilməsi haqqında” Avropa Şurası Konvensiyasının Tərəflər Konfransının 15-ci plenar iclası | Fransa, Strasburq | 09.11.2023 – 10.11.2023 |
| “Azərbaycanda iqtisadi cinayətlərin qarşısının alınması və onunla mübarizə” layihəsinin rəhbər komitəsinin ikinci iclası | Azərbaycan, Bakı | 07.12.2023 |
| Egmont Grupunun 39-cu Plenar iclası | Çin, Sanya | 04.12.2023 - 08.12.2023 |
| Avropa Şurasının MONEYVAL Komitəsinin 66-cı plenar iclası | Fransa, Strasburq | 11.12.2023 – 15.12.2023 |

Hesabat ilində beynəlxalq əməkdaşlığın inkişafı istiqamətində həm EQ çərçivəsində, həm də Anlaşma Memorandumları əsasında məlumat mübadiləsi həyata keçirilmiş, həmçinin Banqladeş, Tacikistan, Vatikan və Fələstinin maliyyə monitorinqi orqanları ilə 4 yeni Anlaşma Memorandumları imzalanmış, bununla da anlaşma memorandumlarının sayı 11-ə çatmışdır.

| Sıra | Tarix | Ölkə | Sənədin adı |
|---|---|---|---|
| 1 | 12/4/2012 | Moldova | Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti və Moldova Respublikasının Korrupsiyaya qarşı Mübarizə üzrə Milli Mərkəzi arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində məlumat mübadiləsi üzrə əməkdaşlığa dair Anlaşma Memorandumu |
| 2 | 11/21/2013 | Belarus | Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti və Belarus Respublikasının Dövlət Nəzarəti Komitəsinin Maliyyə Monitorinqi Departamenti arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitləri və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair Saziş |
| 3 | 1/15/2015 | Türkiyə | Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Türkiyə Respublikasının Maliyyə Nazirliyinin Maliyyə Cinayətlərinin Araşdırılması Şurası (MASAK) arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar maliyyə xarakterli məlumatların mübadiləsində əməkdaşlığa dair Anlaşma Memorandumu |
| 4 | 4/6/2015 | Rusiya | Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti ilə Maliyyə Monitorinqi üzrə Federal Xidmət (Rusiya Federasiyası) arasında cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində qarşılıqlı əməkdaşlıq haqqında Saziş |
| 5 | 4/14/2015 | Makedoniya | Azərbaycan Respublikasının Mərkəzi Bankı yanında Maliyyə Monitorinqi Xidməti ilə Makedoniya Respublikasının Maliyyə Kəşfiyyatı Ofisi arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə əlaqədar maliyyə məlumatlarının mübadiləsi sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu |
| 6 | 3/5/2017 | İran | Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası ilə İran İslam Respublikasının İqtisadi Məsələlər və Maliyyə Nazirliyi yanında Maliyyə Monitorinqi İdarəsi arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu |
| 7 | 9/9/2021 | İsrail | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) ilə İsrailin Pulların Leqallaşdırılması və Terrorçuluğun Maliyyələşdirilməsinə qarşı Mübarizə İdarəsi (İMPA) arasında cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (PL/TMM) dair Anlaşma Memorandumu |
| 8 | 3/29/2023 | Banqladeş | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Banqladeş Maliyyə Monitorinqi Orqanı arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının, əlaqəli predikat cinayətlərin və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (ƏL/TMM) dair Anlaşma Memorandumu |
| 9 | 4/5/2023 | Tacikistan | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Tacikistanın Milli Bankı yanında Maliyyə Monitorinqi departamenti arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının, əlaqəli predikat cinayətlərin və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (ƏL/TMM) dair Anlaşma Memorandumu |
| 10 | 5/25/2023 | Vatikan | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Müqəddəs Taxt-Tacın / Vatikan şəhərinin Nəzarət və Maliyyə Məlumatları Orqanı arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının, əlaqəli predikat cinayətlərin və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (ƏL/TMM) dair Anlaşma Memorandumu |
| 11 | 7/5/2023 | Fələstin | Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti (MMX) ilə Fələstinin Maliyyə Təqibi Qurumu arasında cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının, əlaqəli predikat cinayətlərin və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına (ƏL/TMM) dair Anlaşma Memorandumu |



## İnstitusional quruculuq və təşkilati məsələlər

2023-cü ildə Xidmətdə institusional quruculuq istiqamətində fəaliyyətlər davam etdirilmiş, ƏL/TMM sahəsində bilik səviyyəsinin artırılması, kadr potensialının gücləndirilməsi təmin olunmuş, işaxınlarının və işgüzar yazışmanın avtomatlaşdırılması üzrə işlər yeni mərhələyə keçmişdir. Xidmətdə iş proseslərini nizamlayan daxili qaydalar qəbul edilmiş, struktur yeni çağırışlara uyğunlaşdırılmışdır.
Xidmətin peşəkarlıq səviyyəsinin artırılması məqsədilə əməkdaşlarımız 49 yerli və beynəlxalq təlimlərə cəlb edilmiş, təlimlərin mövzuları əsas etibarı ilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması ilə mübarizə sahəsində yeni üsullar və texnologiyalardan istifadəni, hədəfli maliyyə sanksiyalarının tətbiqini, kibercinayətkarlıqla mübarizəni, ƏL/TMM sahəsində beynəlxalq təcrübənin öyrənilməsini, IT biliklərin artırılmasını və digər bacarıqların inkişafını ehtiva etmişdir.

Ölkədə aparılan "kağızsız hökumət"ə keçid prosesinə uyğunlaşma məqsədilə Xidmətdə kargüzarlıq qaydalarının tələblərinə müvafiq olaraq elektron sənəd dövriyyəsi sistemi qurulmuş, digər dövlət qurumlarının belə sistemlərinə inteqrasiyası istiqamətində işlərə başlanılmışdır.

Hesabat dövrü ərzində Xidmətə dövlət və özəl qurumlarından, o cümlədən beynəlxalq təşkilatlardan və vətəndaşlardan 1714 məktub daxil olmuşdur ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (626) 2,7 dəfə çoxdur. Məktublardan 1011-i məlumat xarakteri daşımış, digərləri qanunvericilikdə nəzərdə tutulmuş müddətdə cavablandırılmışdır. 2023-cü ildə Xidmətdən 887 məktub göndərilmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (412) 2,2 dəfə çoxdur.

Müraciətlərin təsnifatı və illər üzrə müqayisəli cədvəllər aşağıda təqdim edilir.









Məlumatların qəbulu, emalı və təhlili proseslərini, eləcə də işlərin hüquq mühafizə orqanlarına ötürülməsini avtomatlaşdıran yeni proqram təminatının qurulmasına başlanılmışdır.



İnsan resurslarının idarə edilməsi prosesinin təkmilləşdirilməsi məqsədilə yeni qurulan proqram təminatı çərçivəsində “İnsan resurslarının idarə edilməsi” modulu yaradılmış, əməkdaşlar barədə bütün zəruri məlumatlar (əmək stajı, əvvəlki iş yeri, təhsil , diplomlar, xarici dil bilikləri, ünvanlar, ailə tərkibi, hər hansısa fövqəladə hal baş verdikdə ilkin əlaqə saxlanılmalı yaxınları barədə məlumatlar və s.) proqram təminatına yüklənmiş, aparılan əməliyyatlar (əmrlər, ezamiyyələr, xəstəlik vərəqələri və s.), o cümlədən nizam-intizam ilə bağlı tənzimləmənin sistem vasitəsilə həyata keçirilməsinə başlanılmışdır.

Xidmət tətəfindən 2022-ci ilin sentyabr ayından istifadəyə verilmiş elektron tədris platformasında təqdim edilən modullar üzrə tədris materialları yeni qanunvericiliyə uyğunlaşdırılmış və 2023-cü ildə 219 istifadəçi qeydiyyatdan keçmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (66 istifadəçi) 3,3 dəfə çoxdur. 2023-cü il ərzində “ƏL/TMM-in əsasları”, “Nəzarət və tənzimləmə” və “ƏL/TMM üzrə cinayət təqibi” mövzuları üzrə istifadəçilər tərəfindən 102 sertifikat əldə edilmişdir ki, bu da 2022-ci ilin müvafiq göstəricisindən (22 sertifikat) 4,6 dəfə çoxdur.

“Dövlətə məxsus hüquqi şəxslərdə apellyasiya şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 6 may tarixli 681 nömrəli Fərmanına uyğun olaraq Xidmətdə fəaliyyət göstərən Apellyasiya Şurasına 2023-cü il ərzində şikayət daxil olmamışdır.

**Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti**

Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidməti
AZ 1014, Bakı şəhəri, Bülbül prospekti, 40
+(994 12) 598 1946
office@fiu.az
www.fiu.az